**Arəstənin Vətən sevgisi** hekayəti // Xalq qəzeti. - 2024. - 8 mart. - **№ 53**. - S. 8.

**Adı Arəstə olsa da, ahəstə gəzib dolanmağı, bəzənib-düzənməyi sevməyib. Bəlkə də, atası – baş leytenant Kərim Baxışovun həmişə kəmhövsələliyi keçib ona. Fövqəladə Hallar Nazirliyində Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışan atası həyatda daim harasa tələsdiyi kimi, elə ölümə də tələsib. Arəstəgil onu itirəndə qızcığazın cəmi 4 yaşı olub.**
Tibb bacısı olan Arəstə də həmişə harasa tələsib. Azərbaycan Dövlət Pedaqoji Kollecində ingilis dili üzrə təhsil alsa da, hərb sənətinə könül verib. 2018–2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında tibbi statist işində çalışıb. 2019-cu ilin iyulundan isə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə operator vəzifəsində xidmət edib.

Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Füzuli, Zəngilan və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə səngərdəcə tibbi yardım göstərib. Oktyabrın 23-də Qubadlı döyüşləri zamanı vəzifə borcunu yerinə yetirərkən şəhid olub. Vətən naminə ölümə də tələsən cəsur tibb işçisi Biləcəri qəsəbəsinin Şəhidlər xiyabanında torpağa tapşırılıb.

Dünyanı vur-tut 31 yaşında – erkən tərk etmiş gənc ananın Mərdan və Zəhra adında övladları yadigar qalıb. Mərdan jurnalistlərə müsahibəsində deyib ki, anası ingiis dili müəllimi olsa da, bundan imtina edərək, hospitalda tibb bacısı işləyib. O da anasının sağlığında riyaziyyatçı olmağı qərara almışdı, amma indi hərbçi olmaq fikri var. Çox güman ki, bunun əsas səbəbi anasının Vətənə bağlılığı, Qarabağ uğrunda şəhid olmasıdır.

Gənc heykəltaraşMüstəqil Balayev Vətən müharibəsinin yeganə xanım şəhidi Arəstə Baxışovanın büstünü hazırlayıb. Çöhrəsindən cəsarət, mərdlik, eyni zamanda qadın ləyaqəti aşkar hiss olunur. Vətən uğrunda canından keçərək daşa dönmüş qəhrəman el qızının məğrur obrazı qəlbimizi fəxarət duyğuları ilə döyündürür.